AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI

ALİ MƏHKƏMƏSİNİN KOMMERSİYA KOLLEGİYASININ

2023-CÜ İL ÜZRƏ FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

# Bölmə 1: Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının fəaliyyəti üzrə hesabat

## 1.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü il ərzində ümumi fəaliyyətinə dair

**Məlumat**

1. Hesabat dövründə xarici elementli kommersiya mübahisələrinə baxılarkən qüvvədə olan qanunvericiliyin tətbiqi təcrübəsinin təhlili və ümumiləşdirilməsinin nəticələri üzrə "Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Qərarın layihəsi hazırlanaraq Ali Məhkəmənin Plenumunun müzakirəsinə təqdim edilmiş və Plenumun 2023-cü il 14 dekabr tarixli Qərarı ilə təsdiq edilmişdir.

2. Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə müraciət edilərək iki məsələ üzrə Mülki və Kommersiya kollegiyalarının Qərardadı qəbul edilmişdir:

a) "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 59.4-cü maddəsinə dair qanunvericiliyin tətbiqi məsələləri üzrə" 02/2023 nömrəli, 2023-cü il 22 iyun tarixli qərardad;

b) "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 55.3-cü maddəsinin tətbiqi üzrə" 04/2023 nömrəli, 08 dekabr 2023-cü il tarixli qərardad

3. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarının indeksləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə 2023-cü il 4 noyabr tarixli qərarının tələblərinə uyğun olaraq, hesabat ilində 5 iş üzrə 3 ulduz nişanı ilə indeksləşdirilmiş məhkəmə qərarları qəbul edilmiş və yeni axtarış sisteminə daxil edilmişdir. Həmçinin hesabat ili ərzində Kommersiya Kollegiyası vahid məhkəmə təcrübəsinin bərqərar olması məqsədilə qəbul etdiyi qərarlarla müxtəlif hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırmışdır.

4. Kommersiya mübahisələri üzrə vahid məhkəmə təcrübəsinin bərqərar olması və məhkəmə aktlarının sabitliyinin təmin edilməsi məqsədilə ötən illərdə olduğu kimi, cari hesabat dövründə də Kommersiya Kollegiyasında apellyasiya instansiyası məhkəməsinin təkrar ləğv edilmiş aktlarının ləğv edilməsinin əsasları təhlil edilmişdir.

5. Konstitusiya Məhkəməsinin icraatında olan aşağıdakı 3 məsələ üzrə yazılı mülahizələr təqdim edilmişdir:

a) "İcra haqqında" Azərbaycan Respublikasının Qanununun 26, 78.1 və 87.1-ci maddələrinin və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 228-232-ci və 236-cı maddələrinin normaları ilə əlaqəli şəkildə şərh edilməsinə dair";

b) "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 81.1 və 81.3-cü maddələri ilə Azərbaycan Respublikası İnzibati Prossesual Məcəlləsinin 131 və 132-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsi ilə əlaqəli şərh edilməsinə dair";

c) "Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 267.1 və 402.2-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-ci maddəsi ilə müqayisəli şəkildə şərh edilməsinə dair".

6. Hesabat dövründə Mülki Kollegiya ilə birgə, təbii inhsar subyektləri olan "Azəriqaz" İstehsalat Birliyi, "Azərişıq" və "Azərsu" Açıq Səhmdar Cəmiyyətlərinin iştirak etdiyi kommersiya və mülki işlərin təhlili aparılmış, təhlilin nəticələri üzrə həmin qurumların rəhbər şəxsləri ilə görüş keçirilmişdir. Bundan əlavə, həmin təbii inhisar subyektlərinin tərəf olduğu məhkəmə mübahisələrində rast gəlinən sistem xarakterli problemlərlə bağlı aidiyyəti qurumlara məktubiar ünvanlanmışdır.

7. Hesabat ilində məhkəmə aktlarından şikayət verilərkən qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsi məsələləri üzrə təhillər aparılmış, bu sahədə qanunvericiliyin düzgün tətbiqi ilə bağlı Azərbaycan Respublikasının birinci və apellyasiya instansiya məhkəmələrinə icmal məktub göndərilmişdir.

8. Kommersiya kollegiyası aşağıdakı Qanun layihələrinə dair aidiyyəti orqanlara rəy və təkliflərini təqdim etmişdir:

a) Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi"nin 2.1.1-ci yarımbəndinin icrası məqsədi ilə hazırlanmış "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi;

b) Özəl icra institutunun təsis olunması ilə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış hazırlanmış "Özəl icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi.

9. Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən həyata keçirilən "Femida Dialoq Platforması" çərçivəsində Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, media orqanları, Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin üzvləri ilə görüşlər keçirilmiş, kommersiya mübahisələri üzrə müzakirə edilən problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

10. Kommersiya Kollegiyasının hakimləri tərəfindən televiziya yayımı vasitəsi ilə məhkəmələrdə kommersiya işlərinə baxılmasının xüsusiyyətləri, elektron icraatın prosessual əsasları, məhkəmə aidiyyəti qaydaları və digər mövzularda maarifləndirici çıxışlar edilmişdir.

11. Hesabat dövründə Kommersiya Kollegiyasının hakimləri Azərbaycan Respublikası Ədliyyə Akademiyasında hakimliyə namizədlərin tədrisində yaxından iştirak etmiş, kommersiya mübahisələri üzrə məhkəmə təcrübəsinin öyrədilməsinə xüsusi diqqət yetirmişlər.

12. 2023-cü ildə fəaliyyətlərinin dövri qiymətləndirilməsi nəzərdə tutulan birinci instansiya məhkəmələrinin hakimlərinin fəaliyyətlərinin qiymətləndirilməsinə dair rəylər hazırlanaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir

13. 2023-cü ilin ikinci yarısından etibarən online videokonfrans vasitəsilə respublika üzrə fəaliyyət göstərən hakimlərin iştirakı ilə kommersiya mübahisələrinə baxılarən ortaya çıxan problemlərin həlli istiqamətində sual-cavab formatında görüşlər keçirilməkdədir.

14. 2023-cü il ərzində Kommersiya Kollegiyasının sədri tərəfindən 8 vətəndaşın qəbulu həyata keçrilmişdir

**Ali Məhkəmənin Kommersiya Kollegiyası**

## 1.2. Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının 2023-cü ildə icraatında olmuş işlərə dair hesabat

2023-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında cəmi 801 iş olmuş, onlardan 768 iş (95.9%) kommersiya mübahisələri üzrə, 33 iş (4.1%) xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı olmuşdur.

2022-ci ildə isə icraatda cəmi 891 iş olmuş, onlardan 864 iş (97%) kommersiya mübahisələri üzrə, 26 iş (2.9%) xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə və 1 iş (0.9%) məhkəmə qərarlarının icrası ilə bağlı olmuşdur.




2022-ci illə müqayisə edildikdə görünür ki, 2023-cü ildə icraatda olan ümumi iş sayı 90 iş (10.1%) azalmış, kommersiya işlərin sayı 96 iş (11.1%) azalmış, xarici məhkəmələrin qətnamələrinin tanınması və icrası ilə bağlı işlərin sayı isə 7 iş (26.9%) artmışdır.



2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasının icraatında kommersiya mübahisələri üzrə cəmi 768 iş olmuşdur. Bu işlərdən 84 iş (10.9%) 2022-ci ildən qalıq keçmiş, 684 iş (89.1%) 2023-cü ildə daxil olmuşdur.

2022-ci ildə isə icraatda kommersiya mübahisələri üzrə ümumən 864 iş olmuşdur. Onlardan 114 iş (13,2%) 2021-ci ildən qalıq keçmiş, 750 iş (86,8%) 2022-ci ildə daxil olmuşdur.




2022-ci illə müqayisə edildikdə görünür ki, 2023-cü ildə icraatda olan işlərin sayı 96 iş (11.1%), hesabat dövründə daxil olan işlərin sayı 66 iş (8.8%) və əvvəlki ildən qalıq keçən işlər 30 iş (26.3%) **azalmışdır.**



2023-cü ildə icraatda olmuş 768 kommersiya işindən 629 iş (81,9%) apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən verilmiş kassasiya şikayəti ilə, 66 iş (8,6%) apellyasiya instansiyası məhkəmələrinin qərardadlarından verilmiş kassasiya şikayəti ilə, 2 iş (0,3%) təqdimatla, 71 iş (9,2%) aidiyyət mübahisələri ilə əlaqədar olmuşdur.



2023-cü ildə icraatda olmuş 768 işdən cəmi 569 işə (74.1%) mahiyyəti üzrə baxılmış, 51 iş üzrə (6.6%) kassasiya şikayəti qeyri-mümkün hesab edilərək, geri qaytarılmış və ya kassasiya baxışından çıxarılmış, 1 işə (0.1%) təqdimatla baxılmış, 71 iş (9.3%) məhkəmə aidiyyəti mübahisələrinə dair işlər olmuş, 76 iş (9.9%) 2024-cü ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.




2022-ci ildə isə icraatda olmuş 864 işdən 557 işə (64.5%) mahiyyəti üzrə baxılmış, 113 iş (13.1%) kassasiya şikayəti qeyri-mümkün hesab edilərək, geri qaytarılmış və ya kassasiya baxışından çıxarılmış, 110 iş (12.7%) məhkəmə aidiyyəti ilə bağlı olmuş, 84 iş (9.7%) 2023-cü ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.



2023-cü ildə icraatda olan 768 işdən 66 iş (8.6%) apellyasiya instansiyası məhkəmələrinin **qərardadlarından** verilmiş kassasiya şikayəti ilə əlaqadar olmuşdur. Onlardan 4 (6.1%) iş üzrə kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarılmış, 59 (89.4%) işə baxılmış, 3 (4.5%) iş növbəti hesabat ilinə qalıq keçmişdir.




2022-ci ildə isə icraatda olan 864 işdən 210 (24,3%) iş apellyasiya instansiyası məhkəmələrinin qərardadlarından verilmiş kassasiya şikayəti ilə əlaqadar olmuşdur ki, bu da 2023-cü illə müqayisədə 144 işin (68.6%) **azalmasını** göstərir.



2023-cü ildə kommersiya mübahisələri ilə bağlı **baxılmış** 569 işdən 447 işlə (78.6%) bağlı məhkəmə aktı (qətnamə və qərardad) dəyişdirilmədən saxlanılmış, 119 iş üzrə (20.9%) məhkəmə aktı ləğv edilmiş, 3 iş üzrə (0,5%) kassasiya icraatına xitam verilmişdir.




2022-ci ildə isə kommersiya mübahisələri ilə bağlı mahiyyəti üzrə baxılmış 557 işdən 417 işlə (74,9%) bağlı məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 137 iş üzrə (24,6%) məhkəmə aktı ləğv edilmiş, 3 iş üzrə (0,5%) kassasiya icraatına xitam verilmişdir.



2022-ci illə müqayisə edildikdə görünür ki, 2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən dəyişdirilmədən saxlanılmış məhkəmə aktları 30 iş (3.7%) artmış, məhkəmə aktlarının ləğv faizi isə 18 iş (3.7%) azalmışdır.




Aşağıdakı diaqramda 2022-2023-cü illər üzrə Ali Məhkəmənin Kommersiya Kollegiyanın icraatında olmuş kommersiya işləri üzrə müqayisəli vəziyyəti göstərilmişdir.



2023-cü ildə Kommersiya Kollegiyasında baxılmış işlər üzrə cəmi 90.157 manat **dövlət rüsumu** ödənilmişdir. 2022-ci ildə isə cəmi 35.090 manat dövlət rüsumu ödənilmişdir

2022-ci illə müqayisə edildikdə görünür ki, 2023-cü ilin cari hesabat dövründə dövlət büdcəsinə ödənilmiş rüsum məbləği 55.067 manat (1.6 dəfə) **artmışdır.**




☐ Ali Məhkəməsinin Kommersiya Kollegiyasında 2022-2023-cü illərdə **xüsusi qərardad** qəbul edilməmişdir.

☐ 2023-cü il ərzində **Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu** tərəfindən Ali Məhkəmənin Kommersiya Kollegiyasının qərarlarından verilən hər hansı şikayətə baxılmamışdır.

☐ 2023-cü il ərzində **Avropa İnsan Hüquqları Məhkəməsində** baxılaraq yekun qərar qəbul edilmiş kommersiya mübahisəsi olmamışdır.

## 1.3. 2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında baxılmış kommersiya işlərinin (569 iş) kateqoriyalar üzrə bölgüsü[1]

| № | İşlərin Kateqoriyaları | Baxılmış işlərin sayı | Faiz |
|---|---|---|---|
| 1. | Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 19 | 3.3% |
| 2. | Torpaq münasibətlərindən irəli gələn mübahisələr | 2 | 0.3% |
| 3. | Özbaşına və qanunsuz tikililərlə bağlı mübahisələr | 6 | 1.1% |
| 4. | Müqavilə münasibətlərindən irəli gələn mübahisələr (ümumi) | 343 | 60.3% |
| | • Alqı-satqı müqaviləsi üzrə mübahisələr | 70 | 12.3% |
| | • İcarə müqaviləsi üzrə mübahisələr | 34 | 6% |
| | • Borc müqaviləsi üzrə mübahisələr | 7 | 1.2% |
| | • Kredit müqaviləsi üzrə mübahisələr | 93 | 16.3% |
| | • Lizinq müqaviləsi üzrə mübahisələr | 33 | 5.8% |
| | • Podrat müqaviləsi üzrə mübahisələr | 50 | 8.8% |
| | • Tapşırıq müqaviləsi üzrə mübahisələr | 6 | 1.1% |
| | • Daşıma müqaviləsi üzrə mübahisələr | 7 | 1.2% |
| | • Bank hesabı müqaviləsi üzrə mübahisələr | 2 | 0.3% |
| | • Birgə əməkdaşlıq müqaviləsi üzrə mübahisələr | 4 | 0.7% |
| | • Digər müqavilələrdən irəli gələn mübahisələr | 37 | 6.5% |
| 5. | Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn mübahisələr | 7 | 1.2% |
| 6. | Təbii inhisar subyeltlərinin iştirak etdiyi mübahisələr | 59 | 10.4% |
| 7. | Korporativ mübahisələr | 19 | 3.3% |
| 8. | Sığorta fəaliyyətindən irəli gələn mübahisələr | 7 | 1.2% |
| 9. | Sənaye mülkiyyəti obyektlərindən istifadə və onların hüquqi mühafizəsi ilə əlaqədar mübahisələr | 5 | 0.9% |

[1] Bu paraqrafda qeyd olunan statistik məlumatlar Azərbaycan Respublikasının Ali Məhkməsinin yeni axtarış sisteminin bazası əsasında əldə edilmişdir.

| | | | |
|---|---|---|---|
| **10.** | Hüquqi və fiziki şəxslərin ödəmə qabiliyyəti olmayan hesab edilməsi barədə mübahisələr (müflisləşmə (iflas)) | 1 | 0.2% |
| **11.** | Xüsusi icraat qaydasında baxılan işlər (ümumi) | 27 | 4.8% |
| | • Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər | 23 | 4.1% |
| | • Mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi | 4 | 0.7% |
| **12.** | İcra icraatından irəli gələn mübahisələr | 4 | 0.7% |
| **13.** | Xarici elementli kommersiya mübahisələri | 1 | 0.2% |
| **14.** | Sair kommersiya mübahisələri | 69 | 12.1% |
| | **Cəmi:** | **569** | **100%** |

## 1.4. Kommersiya mübahisələri üzrə Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarına dair hesabat

2023-cü ildə kassasiya qaydasında baxılmış 569 işdən 119 iş (20.9%) məhkəmə aktı ləğv edilmişdir. Onlardan 106 iş üzrə (89%) məhkəmə aktı ləğv edilərək, baxılması üçün yenidən apellyasiya məhkəməsinə qaytarılmış; 8 iş üzrə (7%) məhkəmə aktı ləğv edilərək, iş üzrə yeni qərar qəbul edilmiş; 5 iş üzrə (4%) məhkəmə aktı ləğv edilərək, icraata xitam verilmişdir *(bu işlərdən 2 iş üzrə tərəflər arasında bağlanmış barışıq sazişi məhkəmə tərəfindən təsdiq edilməklə, iş üzrə icraata xitam verilmişdir)*.

2022-ci ildə isə kassasiya qaydasında baxılmış 557 işdən 137 iş (24.6%) ləğv edilmişdir. Onlardan 127 iş üzrə (92.8%) məhkəmə aktı ləğv edilərək, baxılması üçün yenidən apellyasiya məhkəməsinə qaytarılmış; 5 iş üzrə (3.6%) məhkəmə aktı ləğv edilərək, iş üzrə yeni qərar qəbul edilmiş; 5 iş üzrə (3.6%) məhkəmə aktı ləğv edilərək, icraata xitam verilmişdir.




2022-ci illə müqayisədə 2023-cü ildə apellyasiya məhkəmələrinin məhkəmə aktlarının kassasiya qaydasında ləğv faizi 3.7% **azalmışdır.**






2023-cü ildə kassasiya qaydasında məhkəmə aktı ləğv edilmiş 119 işdən 89 iş üzrə (75%) apellyasiya instansiyası məhkəmələrinin qəbul etdiyi məhkəmə aktı **ilk dəfə**, 27 iş üzrə (23%) **ikinci dəfə**, 3 iş üzrə (2%) isə **üçüncü dəfə** ləğv edilmişdir.



| 2023-cü il ərzində kassasiya qaydasında ləğv edilmiş işlərin daxil olduğu apellyasiya məhkəmələri üzrə bölgüsü | | | | | |
|---|---|---|---|---|---|
| № | Məhkəmənin adı | Ləğv edilmiş işlər | | | Cəmi |
| | | I | II | III | |
| 1. | Bakı Apellyasiya Məhkəməsi | 59 78.7% | 14 18.7% | 2 2.6% | 75 |
| 2. | Gəncə Apellyasiya Məhkəməsi | 14 73.7% | 5 26.3% | 0 | 19 |
| 3. | Sumqayıt Apellyasiya Məhkəməsi | 7 87.5% | 1 12.5% | 0 | 8 |
| 4. | Şəki Apellyasiya Məhkəməsi | 5 83.3% | 1 16.7% | 0 | 6 |
| 5. | Şirvan Apellyasiya Məhkəməsi | 4 36.4% | 6 54.5% | 1 9.1% | 11 |
| 6. | Naxçıvan MR Ali Məhkəməsi | 0 | 0 | 0 | 0 |
| | Cəmi: | 89 75% | 27 23% | 3 19% | 119 |



| Apellyasiya məhkəmələri üzrə ləğv olunmuş məhkəmə aktlarının baxılmış işlərə nisbəti | | | | |
|---|---|---|---|---|
| № | Məhkəmənin adı | Cəmi baxılmış işlər | Ləğv edilmiş işlər | Faiz nisbəti |
| 1. | Bakı Apellyasiya Məhkəməsi | 370 | 75[2] | 20.3% 19.7% |
| 2. | Gəncə Apellyasiya Məhkəməsi | 93 | 19 | 20.4% |
| 3. | Sumqayıt Apellyasiya Məhkəməsi | 39 | 8 | 20.5% |
| 4. | Şəki Apellyasiya Məhkəməsi | 21 | 6 | 28.6% |
| 5. | Şirvan Apellyasiya Məhkəməsi | 44 | 11 | 25% |
| 6. | Naxçıvan MR Ali Məhkəməsi | 4 | 0 | 0 |

[2] Bu rəqəm "Elektron Məhkəmə" İnformasiya Sistemi əsasında əldə edilmiş statistik məlumatları əks etdirir. Bu məhkəmədən daxil olmuş 2 iş üzrə məhkəmə aktı barışıq sazişinin təsdiqlənməsi səbəbindən ləğv edilmişdir. Ləğvin faizi hesablanarkən bu hal nəzərə alınmışdır (sarı rənglə seçilmiş ikinci faiz).

### 1.5. 2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında təkrar baxılaraq, ləğv edilmiş məhkəmə aktlarına dair hesabat

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş 119 işdən 30 (25%) işə kassasiya qaydasında təkrar baxılaraq, məhkəmə aktı ləğv edilmişdir. Onlardan 27 (23%) işə kassasiya qaydasında ikinci dəfə, 3 (2%) işə isə üçüncü dəfə baxılmışdır. *Kassasiya qaydasında ikinci dəfə baxılmış 1 iş üzrə məhkəmə aktı ləğv edilərək, tərəflər arasında bağlanmış barışıq sazişi təsdiqlənmiş və bu əsasla iş üzrə icraata xitam verilmişdir.*




2022-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş 137 işdən 11 (8%) işə kassasiya qaydasında təkrar baxılaraq, məhkəmə aktı ləğv edilmişdir. Onlardan 7 (63.7%) işə kassasiya qaydasında ikinci dəfə, 4 (36.3%) işə isə üçüncü dəfə baxılmışdır.



2023-cü ildə kassasiya qaydasında təkrar baxılaraq, ləğv edilmiş 30 (25%) işdən 15 (50%) iş üzrə məhkəmə aktı tam, 7 (23.3%) iş üzrə qismən ləğv edilərək, iş yeni apellyasiya baxışına göndərilmiş, 4 (13.4%) iş üzrə məhkəmə aktı tam, 2 (6.7%) iş üzrə qismən ləğv edilərək, yeni qərar qəbul edilmiş, 1 (3.3%) iş üzrə məhkəmə aktı qismən ləğv edilmiş, 1 (3.3%) iş üzrə məhkəmə aktı ləğv edilərək, tərəflər arasında bağlanmış barışıq sazişi təsdiqlənməklə iş üzrə icraata xitam verilmişdir.

2022-ci ildə isə kassasiya qaydasında təkrar baxılaraq ləğv edilmiş 11 (8%) işdən 8 (72,7%) iş üzrə məhkəmə aktı tamamilə, 2 (18,2%) iş üzrə qismən ləğv edilərək, işin yeni apellyasiya baxışına göndərilmiş, 1 (9,1%) iş üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.



2023-cü ildə təkrar ləğv edilmiş 30 işdən 16 iş (53.3%%) Bakı Apellyasiya Məhkəməsindən, 5 iş (16.7%) Gəncə Apellyasiya Məhkəməsindən, 1 iş (3.3%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 7 iş (23,4%) Şirvan Apellyasiya Məhkəməsindən, 1 iş (3.3%) Şəki Apellyasiya Məhkəməsindəmn daxil olmuşdur.




2022-ci ildə isə təkrar ləğv edilmiş 11 iş üzrə məhkəmə aktlarından 5 iş (45,4%) Bakı Apellyasiya Məhkəməsindən, 1 iş (9,1%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 3 iş (27,3%) Şirvan Apellyasiya Məhkəməsindən, 2 iş (18,2%) Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur.



| 2023-cü ildə kassasiya qaydasında təkrar baxılaraq, ləğv edilmiş işlərin (30 iş) **kateqoriyaları** | Say |
|---|---|
| • Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | **1** |
| • Müqavilə münasibətlərindən irəli gələn mübahisələr (ümumi) | **21** |
| ▪ Kredit müqaviləsi üzrə mübahisələr | 7 |
| ▪ Alqı-satqı müqaviləsi üzrə mübahisələr | 3 |
| ▪ Lizinq müqaviləsi üzrə mübahisələr | 2 |
| ▪ İcarə müqaviləsi üzrə mübahisələr | 2 |
| ▪ Podrat müqaviləsi üzrə mübahisələr | 3 |
| ▪ Daşıma müqaviləsi üzrə mübahisələr | 1 |
| ▪ Saxlama müqaviləsi üzrə mübahisələr | 2 |
| ▪ Birgə əməkdaşlıq müqaviləsi üzrə mübahisələr | 2 |
| • Mülki hüquq pozuntusundan (deliktdən) irəli gələn mübahisələr | **1** |
| • Korporativ mübahisələr | **2** |
| • Təbii inhisar subyektlərinin iştirakı ilə mübahisələr | **4** |
| **Cəmi:** | **30** |

2023-cü ildə kassasiya qaydasında **üçüncü dəfə baxılaraq, məhkəmə aktı ləğv edilmiş** 3 işdən 2 (66.7%) iş üzrə məhkəmə aktı ləğv edilərək, iş yeni apellyasiya baxışına göndərilmiş, 1 iş üzrə (33.3%) məhkəmə aktı ləğv edilərək, yeni qərar qəbul edilmişdir.



## 1.6. Xarici dövlətlərin məhkəmələrinin və arbitrajların qətnamələrinin icrası və tanınmasına dair hesabat

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasının icraatında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin tanınması və icrası barədə cəmi 33 ərizə olmuş, onlardan 7 ərizə (21,2%) 2022-ci ildən qalıq kimi keçmiş, 26 ərizə (78,8%) 2023-cü ildə daxil olmuşdur.

2022-ci ildə isə bu barədə cəmi 26 ərizə icraatda olmuş, onlardan 3 ərizə (11,5%) 2021-ci ildən qalıq kimi keçmiş, 23 ərizə (88,5%) 2022-ci ildə daxil olmuşdur.




2022-ci illə müqayisə edildikdə görünür ki, 2023-cü ilin cari hesabat dövründə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin tanınması və icrası barədə icraatda olmuş ərizələrin sayı 7 ərizə (26,9%) artmışdır.



2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasının icraatında olan xarici məhkəmələrin və arbitrajların qətnamələrinin tanınması və icrası barədə 33 ərizədən 25 ərizəyə (75,8%) baxılmış, 8 ərizə (24,2%) 2024-cü ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.

2022-ci ildə isə icraatında olan 26 ərizədən 19 ərizəyə (73,1%) baxılmış, 7 ərizə (26,9%) 2023-cü ilin növbəti hesabat dövrünə qalıq keçmişdir.




2023-cü ildə baxılmış 25 işdən 20 iş üzrə (80%) xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 5 iş üzrə (20%) təmin edilməmişdir.

2022-ci ildə isə baxılmış 19 işdən 16 iş üzrə (84.2%) xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 3 iş üzrə (15.8%) təmin edilməmişdir.



Ali Məhkəmənin Kommersiya Kollegiyasında 2010-2023-cü illər ərzində xarici məhkəmələrin və arbitrajların qətnamələrinin tanınması və icrası barədə müraciətlərə dair ümumi iş yükü




Xarici dövlətlərin məhkəmə və arbitrajlarının qətnamələrinin icrası və tanınması ilə nəticələnən işlərin 2010-2023-cü illər üzrə müqayisəli vəziyyəti



Xarici dövlətlərin məhkəmə və arbitrajlarının qətnamələrinin icrası və tanınmasından imtina edilmiş işlərin 2010-2023-cü illər üzrə müqayisəli vəziyyəti



### 1.7. Ali Məhkəmənin Plenumunda həll edilən məsələlərlə bağlı 2023-cü il ərzində kommersiya işləri üzrə müraciətlərə dair hesabat

2023-cü ildə Kommersiya Kollegiyasının qərarlarından Plenum icraatı üzrə 31 əlavə kassasiya şikayəti, 13 məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə, o cümlədən işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərlə bağlı 1 müraciət daxil olmuşdur.

2022-ci ildə isə Kommersiya Kollegiyasının qərarlarından Plenum icraatı üzrə ümumilikdə 17 əlavə kassasiya şikayəti, 6 məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə, o cümlədən işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərlə bağlı 1 müraciət daxil olmuşdur.






## 1.8. Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında olan işlərin 2015-2023-cü illər üzrə müxtəlif meyarlara görə müqayisəsi







İl ərzində baxılmış işlər üzrə
600
500
400
300
200
100
0
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022
2023
2024
345
490
504
465
500
263
494
557
569


Kassasiya qaydasında dəyişdirilmədən saxlanılmış məhkəmə aktları üzrə
500
450
400
350
300
250
200
150
100
50
0
2015
2016
2017
2018
2019
2020
2021
2022
2023
228
360
347
315
366
175
347
417
447


Kassasiya qaydasında ləğv edilmiş məhkəmə aktları üzrə
2023
2022
2021
2020
2019
2018
2017
2016
2015
119
137
136
85
128
140
150
123
110
0
20
40
60
80
100
120
140
160


Kassasiya qaydasında dəyişdirilmiş məhkəmə aktları üzrə
7
6
5
4
3
2
1
0
4
4
6
4
4
4
6
0
0
2015
2016
2017
2018
2019
2020
2021
2022
2023

## 1.9. 2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında məhkəmə aidiyyətinə dair baxılmış işlər üzrə hesabat

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasına daxil olan hakimlərin sədrliyi və məruzəsi ilə qarışıq tərkibdə cəmi 71 məhkəmə aidiyyətinə dair işə baxılmışdır.

2022-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasına daxil olan hakimlərin sədrliyi və məruzəsi ilə qarışıq tərkibdə cəmi 110 məhkəmə aidiyyətinə dair işə baxılmışdır.



## 1.10. Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən 2023-cü il ərzində kassasiya şikayəti qeyri-mümkün hesab edilərək, geri qaytarılmış işlər üzrə hesabat

2023-cü il ərzində Ali Məhkəmənin Kommersiya Kollegiyası tərəfindən 51 iş üzrə kassasiya şikayəti qeyri-mümkün hesab edilərək, geri qaytarılmış və ya kassasiya baxışından çıxarılmışdır. Onlardan 45 iş üzrə kassasiya şikayəti MPM-in tələblərinə cavab vermədiyindən qeyri-mümkün hesab edilmiş, 6 iş üzrə kassasiya şikayəti icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə müraciət etdiyi müəyyən olunduğundan, icraata qəbul qərardadı ləğv edilərək, iş kassasiya baxışından çıxarılmaqla apellyasiya instansiyası məhkəməsinə qaytarılmışdır.

| Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə əsas olmuş nöqsanlar | Say |
|---|---|
| Kommersiya mübahisələrinə dair işlər üzrə mübahisələndirilən hissəsində iddianın qiymətinin 10.000 manatdan az olması (MPM 402.1) | 8 |
| Kassasiya şikayətinin forma məzmunu ilə bağlı tələblərin pozulması, o cümlədən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olmasının qeyd edilməməsi (MPM 407.1 / Əlavə 3, 407.1.4, 408.1.5) | 16 |
| Kassasiya şikayətinə vəkilin orderi və müəyyən olunmuş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsi barədə sənədlər əlavə edilməməsi (MPM 407.4) | 7 |
| Kassasiya şikayətinin prosessual müddət ötürülməklə verilməsi (MPM 408.1.4) | 2 |
| Kassasiya şikayətinin imzalanmaması, yaxud hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanması (MPM 408.1.1) | 8 |
| Kassasiya şikayəti verilməsi mümkün olmayan qərardadlardan şikayət verilməsi (MPM 402.2) | 2 |
| Kassasiya şikayəti ilə müraciət etmək hüququ olmayan şəxsin kassasiya şikayəti verməsi (MPM 403.1) | 2 |
| **Cəmi** | **45** |

2023-cü il ərzində kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş 45 işdən 27 iş Bakı Apellyasiya Məhkəməsindən, 6 iş Gəncə Apellyasiya Məhkəməsindən, 9 iş Sumqayıt Apellyasiya Məhkəməsindən, 2 iş Şirvan Apellyasiya Məhkəməsindən, 1 iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuşdur.

2023-cü il ərzində Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 453 işdən 27 iş üzrə (6%), Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 108 işdən 6 iş üzrə (5.5%), Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 56 işdən 9 iş üzrə (16%), Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 51 işdən 2 iş üzrə (3.9%), Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 23 işdən 1 iş üzrə (4.3%) kassasiya şikayəti qeyri-mümkün hesab edilmiş, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən daxil olmuş 4 işin hər biri kassasiya icraatına qəbul edilmişdir.



## 1.11. Apellyasiya instansiyası məhkəmələrindən daxil olmuş kommersiya mübahisələrinə baxılmasının müqayisəli təhlili



### 1.11.1. BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə kassasiya məhkəməsinin icraatında olmuş 768 işdən 453 iş (59%) Bakı Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 370 işə (82%) 2023-cü ildə baxılmış, 52 iş (11,4 %) növbəti hesabat dövrünə qalıq keçmiş, 31 iş üzrə (7%) kassasiya şikayəti geri qaytarılmışdır.




2022-ci ildə isə kassasiya məhkəməsinin icraatında olmuş 864 işdən 536 iş (62,04%) Bakı Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 411 işə (76,7%) 2022-ci ildə baxılmış, 54 iş (10,1%) növbəti hesabat dövrünə qalıq keçmiş, 70 iş üzrə (13,1%) kassasiya şikayəti geri qaytarılmış, 1 iş (0,2%) məhkəmə aidiyyəti ilə bağlı olmuşdur.



2023-cü ildə baxılmış 370 işdən 293 iş üzrə (79,2%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 75 iş üzrə (20,3%) məhkəmə aktları ləğv edilmiş, 2 iş üzrə (0,5%) kassasiya icraatına xitam verilmişdir.

2022-ci ildə isə baxılmış 411 işdən 326 iş üzrə (79,3%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 83 iş üzrə (20,2%) məhkəmə aktları ləğv edilmiş, 2 iş üzrə (0,5%) kassasiya icraatına xitam verilmişdir.



**Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının kassasiya qaydasında ləğv edilmiş məhkəmə aktlarının nəticələri üzrə hesabat**

2023-cü ildə kassasiya qaydasında baxılaraq məhkəmə aktı ləğv edilmiş 75 (20.3%) işdən 68 iş üzrə (18,4%) məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 5 iş üzrə (1,4%) məhkəmə aktı ləğv edilərək, yeni qərar qəbul edilmiş, 2 iş üzrə (0,5%) icraata xitam verilmişdir.




2022-ci ildə isə kassasiya qaydasında baxılaraq məhkəmə aktı ləğv edilmiş 83 (20.2%) işdən 76 iş üzrə (18,5%) məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 3 iş üzrə (0,7%) yekun məhkəmə aktı qəbul edilmiş, 4 iş üzrə (1%) icraata xitam verilmişdir.



Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş işlərin müxtəlif meyarlara görə 2019-2023-cü illər üzrə müqayisəsi







Cəmi ləğv edilmiş işlər üzrə
2023
2022
2021
2020
2019
75
83
80
54
88
0
10
20
30
40
50
60
70
80
90
100


Dəyişdirilmiş  işlər üzrə
5
4.5
4
3.5
3
2.5
2
1.5
1
0.5
0
4
1
5
0
0
2019
2020
2021
2022
2023

### 1.11.2. GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 768 işdən 108 iş (14%) Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 93 (86%) işə 2023-cü ildə baxılmış, 8 (7%) iş növbəti hesabat dövrünə qalıq keçmiş, 7 (6%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.




2022-ci ildə isə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 864 işdən 81 (9,38%) iş Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 55 (67,9%) işə 2022-ci ildə baxılmış, 12 (14,8%) iş növbəti hesabat dövrünə qalıq keçmiş, 14 (17,3%) iş üzrə kassasiya şikayəti isə geri qaytarılmışdır.



2023-cü ildə baxılmış cəmi 93 işdən 73 (78,5%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 19 (20,4%) məhkəmə aktı ləğv edilmiş, 1 (1,1%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.

2022-ci ildə isə baxılmış cəmi 55 işdən 34 (61,8%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 21 (38,2%) məhkəmə aktı ləğv edilmişdir.



**Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələri üzrə hesabat**

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 108 işdən 93 (86%) işə baxılmışdır. Baxılmış 93 işdən 19 (20,4%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir. Onlardan 17 (18,3%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 2 (2,2%) iş üzrə isə icraata xitam verilmişdir.




2022-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 81 işdən 55 (67,9%) işə baxılmışdır. Baxılmış işlərdən 21 (38,2%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir. Onlardan 20 (36,4%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 1 (1,81%) iş üzrə isə icraata xitam verilmişdir.



Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş işlərin müxtəlif meyarlara görə 2019-2023-cü illər üzrə müqayisəsi









### 1.11.3. SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 768 işdən 56 (7,2%) iş Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 39 (70%) işə 2023-cü ildə baxılmış, 8 (14%) iş növbəti ilə qalıq keçmiş, 9 (16%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.




2022-ci ildə isə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 864 işdən 38 (4,4%) iş Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 24 (63,2%) işə 2022-ci ildə baxılmış, 7 (18,4%) iş növbəti ilə qalıq keçmiş, 7 (18,4%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.



2023-cü ildə baxılmış 39 işdən 31 iş üzrə (79,5%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 8 iş üzrə (20,5%) məhkəmə aktı ləğv edilmişdir.

2022-ci ildə isə baxılmış 24 işdən 16 iş üzrə (66,7%) məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 8 iş üzrə (33,3%) məhkəmə aktı ləğv edilmişdir.



**Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabat**

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 56 işdən 39 (70%) işə baxılmışdır. Baxılmış 39 işdən 8 iş üzrə (20,5%) məhkəmə aktı ləğv edilərək, yeni apellyasiya baxışına göndərilmişdir.

2022-ci ildə isə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 38 işdən 24 (63,2%) işə baxılmışdır. Baxılmış 24 işdən 8 iş üzrə (33,3%) məhkəmə aktı ləğv edilərək, yeni apellyasiya baxışına göndərilmişdir.



Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş işlərin müxtəlif meyarlara görə 2019-2023-cü illər üzrə müqayisəsi









### 1.11.4. ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 768 işdən 51 (6,6%) iş Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 44 (86%) işə 2023-cü ildə baxılmış, 4 (8%) iş növbəti ilə qalıq keçmiş, 3 (6%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.




2022-ci ildə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 864 işdən 65 (7,5%) iş Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 43 (66,2%) işə 2022-ci ildə baxılmış, 8 (12,3%) iş növbəti ilə qalıq keçmiş, 14 (21,5%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.



2023-cü ildə baxılmış 44 işdən 33 (75%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 11 (25%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir.

2022-ci ildə baxılmış 43 işdən 24 (55,8%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 19 (44,2%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir.



**Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabat**

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 51 işdən 44 (86%) işə baxılmışdır. Baxılmış 44 işdən 11 (25%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir. Onlardan 8 (18,1%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 3 (6,8%) iş üzrə yeni qərar qəbul edilmişdir.

2022-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 65 işdən 43 (66,2%) işə baxılmışdır. Baxılmış 43 işdən 19-da (44,2%) məhkəmə aktı ləğv edilmişdir. Onlardan 17 (39,5%) iş üzrə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilmiş, 2 (4,7%) iş üzrə yeni qərar qəbul edilmişdir.



Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş işlərin müxtəlif meyarlara görə 2019-2023-cü illər üzrə müqayisəsi









## 1.11.5. ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2023-cü ildə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 768 işdən 23 (3%) iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 21 (91,4%) işə 2023-cü ildə baxılmış, 1 (4,3%) iş növbəti ilə qalıq keçmiş, 1 (4,3%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.




2022-ci ildə isə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 864 işdən 29 (3,4%) iş Şəki Apellyasiya Məhkəməsindən daxil olmuşdur. Onlardan 21 (72,4%) işə 2022-ci ildə baxılmış, 2 (6,9%) iş növbəti dövrə qalıq keçmiş, 6 (20,7%) iş üzrə kassasiya şikayəti geri qaytarılmışdır.



2023-cü ildə baxılmış 21 işdən 15 (71,4%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 6 (28,6%) iş üzrə məhkəmə aktı ləğv edilmişdir.

2022-ci ildə isə baxılmış 21 işdən 16 (76,2%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 4 (19%) iş üzrə məhkəmə aktı ləğv edilmiş, 1 (4,8%) kassasiya icraatına xitam verilmişdir.



**Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasınının Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyası tərəfindən ləğv edilmiş məhkəmə aktlarının nəticələr üzrə hesabat**

2023-cü ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 23 işdən 21 (91,4%) işə baxılmışdır. Baxılmış 21 işdən 5 iş üzrə (23,8%) məhkəmə aktı ləğv edilərək, təkrar baxışa göndərilmiş, 1 (4,8%) iş üzrə məhkəmə aktı ləğv edilərək, icraata xitam verilmişdir.

2022-ci ildə Ali Məhkəmənin Kommersiya Kollegiyasında Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 29 işdən 21 (72,4%) işə baxılmışdır. Baxılmış 21 işdən 4 işdə (19%) məhkəmə aktı ləğv edilərək, təkrar baxışa göndərilmişdir.



Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş işlərin müxtəlif meyarlara görə 2019-2023-cü illər üzrə müqayisəsi









### 1.11.6. NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ

2023-cü ildə kassasiya məhkəməsinin icraatında olmuş cəmi 768 işdən 4 (0,5%) iş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən daxil olmuşdur. Onlardan 2 (50%) işə 2023-cü ildə baxılmış, 2 (50%) iş növbəti ilə qalıq keçmişdir.

2022-ci ildə isə kassasiya məhkəməsinin icraatında olmuş 864 işdən 4 (0,5%) iş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən daxil olmuşdur. Onlardan 3 (75%) işə 2022-ci ildə baxılmış, 1 (25%) iş növbəti dövrə qalıq keçmişdir.




2023-cü ildə baxılmış 2 (100%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmışdır.

2022-ci ildə isə baxılmış 3 işdən 1 (33,3%) iş üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 2 (66,7%) iş üzrə məhkəmə aktı ləğv olunmuşdur.



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsindən daxil olmuş işlərin müxtəlif meyarlara görə 2019-2023-cü illər üzrə müqayisəsi






# Bölmə 2: Ölkə üzrə apellyasiya məhkəmələrinin icraatında olan kommersiya mübahisələrinə dair işlərin hesabatı[3]

## 2.1. BAKI APELLYASİYA MƏHKƏMƏSİNİN HESABATI

2023-cü ildə Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının icraatında cəmi 1346 iş olmuşdur. Onlardan 211 (15,82%) iş 2022-ci ildən qalıq keçmiş, 1135 iş (84,18%) isə 2023-cü ildə daxil olmuşdur. Qeyd olunan 1346 işdən 1334 işi birinci instansiya məhkəməsinin məhkəmə aktlarından verilmiş apellyasiya şikayətləri əsasında daxil olan kommersiya mübahisələrinə dair işlər, 12 işi isə müvəqqəti təminat tədbirlərinin tətbiqinə dair birbaşa apellyasiya məhkəməsinə daxil olmuş ərizələr təşkil edir.




2022-ci ildə isə kollegiyanın icraatında 1419 iş olmuşdur ki, 2023-cü illə müqayisə edildikdə icraatda olan işlərin sayının 73 iş (5,1%) azalması müşahidə olunur.




